

Leyla Əsədullayeva

# MƏLƏK SEÇDİN

Qəribə bir mələk seçdin,
Sevməyə.
Elə bir mələkdir ki o,
Ürəyi od, sinəsi buz.
Dahi bir heykəltəraşın,
İncə ruhlu heykəlidir.
Əzəmətli bəstəkarın,
Qeyri-adi bəstəsi.
İçməmiş meyxoş şairin,
Şeirindəki gözəlidir.
Elmi daşan həkimlərin,
Müəmmalı xəstəsi...

Qəribə bir mələkdir o.
Ağladıqca göz yaşları,
Daşa dönür.
Mərmər olur, qənbər olur,
Ayaqlarının altında,
Ağladıqca ucalır.

Gündə min bir şəkil alır,
Sevir səni.
Üşüyəndə, yorğan olur.
Aldadanda, iblis olur
Sevir səni...

Qəribə bir mələk seçdin
sevməyə...

Kaspi-2016.- 17-19 sentyabr.-S.20.